

## Həzar

*İnsanı tanımaq çətinmiş yaman,*
*Peyğəmbər donunda gəzəndən həzar,*
*Yeridib dağına vaxtsız çən, duman,*
*Yetimi, yesiri əzəndən həzar.*

*Məsəl var deyərlər yatan zaman baxt,*
*Dəyməz bir quruşa qızıldan tac-taxt,*
*İnsan olduğunu unudub çox vaxt,*
*Haqqa dodağını büzəndən həzar.*

*Atıb imzasını akta dost kimi,*
*Kaş elə, çıxaydı vaxta dost kimi,*
*Qılıb qeybətini saxta dost kimi,*
*Səni oğrun-oğrun süzəndən həzar.*

*Hərçənd söz desəm də el arasında,*
*Qalmışam daşqınla sel arasında,*
*Vaxt tapıb küləklə, yel arasında*
*Adına şər böhtan düzəndən həzar*

*Cəlildən nəsihət olsa da mənə,*
*Daha söz deyəndə laxlayır çənə,*
*Dar gündə buynuzun göstərib sənə*
*Əlini əlindən üzəndən həzar.*

**Cəlil Xeyirbəy**
**Qızıl Qələm media mükafatçısı.**
**Qəbələnin Səsi şairlər məclisinin üzvü**